# ABŞ-Aİ arasında geosiyasi qarşıdurma dərinləşir

**"Son dövrlərdə ABŞ və Avropa İttifaqı (Aİ) arasında Ukrayna müharibəsinin dayandırılması məsələsində fərqli yanaşmalar müşahidə olunur. Bəzi mənbələrə görə, ABŞ Rusiya ilə birbaşa danışıqlar apararaq münaqişənin həllinə çalışır".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, bu, Aİ-də narahatlığa səbəb olur, çünki Avropa ölkələri Ukraynanın iştirakı olmadan aparılan müzakirələrin öz maraqlarına uyğun olmadığını düşünürlər. Tramp administrasiyasının Ukrayna məsələsində danışıqlara başlaması ABŞ-Avropa münasibətlərindəki gərginliyə səbəb olub. Göründüyü kimi, ABŞ-də Donald Trampın hakimiyyətə gəlməsi ilə yeni siyasi xətt müəyyən olunub. Tramp seçki kampaniyası zamanı "hər şey Amerika üçün və ya ən güclü Amerika" şüarları ilə seçicilərin rəğbətini qazanaraq hakimiyyətə gəldi. Ona görə də bu gün sərt addımlar ataraq ABŞ-nin maraqları üçün çalışır. Hətta Amerikanın bu zamana kimi əsas müttəfiqi olan Avropa İttifaqı ölkələrini də təhdid edir, onlarla iqtisadi savaşa girə biləcəyini deyir.

Deputat qeyd edib ki, ABŞ və Avropa İttifaqı arasında qarşıdurmanın durmadan artması və Donald Trampın açıqlamaları dünyada "Kollektiv Qərb" anlayışının olmaması və ya süqut etməsi kimi qəbul olunur: "Bu gün qlobal media



Rusiya-Ukrayna savaşından daha çox ABŞ-Avropa qarşıdurmasını müzakirə edir. Münxen Təhlükəsizlik Konfransında ABŞ vitse-prezidentinin çıxışı beynəlxalq aləm üçün "soyuq duş" oldu. ABŞ-nin yeni administrasiyasının xarici siyasətində müəyyən dəyişikliklər aydın şəkildə görünməkdədir. ABŞ və Avropa İttifaqının strateji hədəfləri artıq ayrılıb. Avropa İttifaqı isə Ukraynanın ərazi bütövlüyünün qorunması və Rusiyanın tamamilə zəiflədilməsi məqsədini güdür. Bu yanaşma Aİ-nin Ukrayna ilə bağlı daha sərt mövqeyini göstərir. Məsələn, Aİ Ukrayna ilə bağlı fövqəladə sammitlər keçirərək, münaqişənin həlli üçün daha fəal rol oynamağa çalışır. Bu fərqliliklər artıq ABŞ və Aİ arasında strateji hədəflərin ayrıldığını göstərir".

Deputat diqqətə çatdırıb ki, Rusiya-Ukrayna müharibəsi fonunda Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaranıb. Tramp administrasiyasının Ukrayna məsələsində Putinlə danışıqlara başlaması və ABŞ-Avropa münasibətlərindəki gərginlik regional proseslərə də təsirsiz ötüşmür. Bu mənada Avropa İttifaqındakı narahatlıqların Cənubi Qafqazla da əlaqədar olduğu diqqəti cəlb edir, çünki Donald Tramp bu regionu Rusiyanın təsir zonasına salsa, Avropa İttifaqının Ermənistandakı monitorinq missiyasının varlığı da təhlükə altına düşəcək.

K.Bayramov bildirib ki, Azərbaycanla münasibətlərə gəldikdə isə ABŞ-nin yeni administrasiyasının siyasətində müsbət dəyişikliklər müşahidə olunur. Ümumilikdə, ABŞ yeni administrasiyasının xarici siyasətində rəngli inqilabların dəstəklənməsi kimi müdaxilələrdən çəkinərək, daha çox diplomatik və əməkdaşlığa yönəlmiş yanaşmaya üstünlük verildiyi görünür. Azərbaycan strateji coğrafi mövqeyi və enerji resursları ilə ABŞ üçün əhəmiyyətli bir tərəfdaşdır.

Deputat hesab edir ki, dəyişən dünya düzənində cərəyan edən proseslər fonunda ABŞ-Azərbaycan münasibətlərinin inkişafı, iki ölkə arasında əlaqələrin strateji səviyyəyə qaldırılması hər iki tərəf üçün uğurlu olar.

***Əsmər QARDAŞXANOVA,***
***" Azərbaycan"***

Azərbaycan.- 2025.- 25 fevral (№ 42).- S.10.